# Heydər Əliyevin yadigarı




**75 il öncə Sumqayıtın təməlini qoyanlar əsasən gənclər olmuşdur. Ötən əsrin 50-ci illərində keçmiş sovetlər ölkəsinin müxtəlif yerlərindən bura xeyli gənc gəlmişdi. Ona görə Sumqayıta gənclər şəhəri də deyirlər.**

Az bir zaman kəsiyində Sumqayıt təkcə SSRİ-də deyil, bütün dünyada tanınan sənaye şəhərinə çevrildi. Ulu Öndər hələ dövlət təhlükəsizlik orqanlarında çalışanda belə, bu şəhərə həmişə qayğı göstərmiş, ozamankı zavodların tikintisinə nümayəndə kimi nəzarət etmişdir.

1970-ci ildən isə Sumqayıt Ümummilli Lider Heydər Əliyevin böyük diqqəti nəticəsində inkişaf etməyə başlamışdır. Həmin illər tikilən zavodlar, salınan yaşayış massivləri o qədər sürətlə tikilirdi ki, şəhər günbəgün tanınmaz olurdu. Heydər Əliyev tez-tez Sumqayıta gəlir, şəhərin infrastruktunun qurulmasına nəzarət edirdi.

Yeni salınan şəhərdə mədəniyyət ocaqlarının yaradılmasına Ulu Öndər xüsusi həssaslıqla yanaşmağı məsləhət görər, onların yerinin seçilməsində və tikintisində tövsiyələrini verərdi. Belə mədəniyyət saraylarından biri də Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının binasıdır (hazırda Sumqayıt Dövlət Dram Teatrı adlanır). Həmin teatrın binasının yeri məhz Heydər Əliyevin göstərişi ilə seçilmişdir. Bu gün şəhərdə nə qədər müasir, unikal binalar tikilsə də, yenə teatrın binası öz unikallığı ilə seçilir.

1969-cu ildən fəaliyyətə başlayan teatrın səhnəsində təkcə Azərbaycan deyil, dünya mütəfəkkirlərinin əsərləri də tamaşaya qoyulurdu. Sumqayıta səfər zamanı Ulu Öndər teatra gələr, aktyorlarla səmimi söhbət edərdi. Çox zaman tamaşa məşqlərinə baxar, tövsiyələrini verərdi. Bu, aktyorlara səhnə fəaliyyətlərində böyük stimul yaradardı.

Artıq uzun illərdir ki, həmin teatrın binasında, foyedə bir şəkil bura gələnlərin diqqətini xüsusi cəlb edir. Həmin şəkil uzun illərin xatirəsini bu günə daşıyan bir yadigardır. İnsan bu şəklə baxdıqca gözləri önündə Ulu Öndərin xatirəsi canlanır.

1981-ci ildə tamaşaya qoyulan əsərlərdən biri də Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" əsəri idi. Burada vətənpərvərlik, yenilik, gələcəyə inam ideyaları yer almışdı. Moskvada keçirilən tamaşanın premyerasında Heydər Əliyev də iştirak etmişdi. Tamaşa sona çatdıqdan sonra Ulu Öndər səhnəyə qalxıb aktyorlarla görüşmüşdü. Ümummilli Liderin səmimiyyətini zaldakılar ayaqüstə alqışlamışlar. Üzünü zala çevirən böyük rəhbər demişdi:

- Baxın, bizim necə gözəl əsərlərimiz var. Belə əsərlər xalqımızın parlaq simasını, nurlu gələcəyini əks etdirir. Məncə belə əsərlər çox yazılmalı, tamaşaya qoyulmalıdır. Nəinki Şərq, bütün bəşər Azərbaycan mədəniyyətinin nəyə qadir olduğunu görməlidir. Biz azərbaycanlılar buna qadirik və bunu edəcəyik.

Onu da bildirək ki, məhz bu tamaşadan sonra Ümummilli Liderin qayğısı nəticəsində Sumqayıt Dövlət Dram Teatrı səhnə əsərləri ilə hamını heyran etməyə başladı. Onlarla məşhur aktyor böyük sənətə buradan qanadlandı.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 13 dekabr (№ 275).- S.10.